**Həyat düşüncələri**

"Bu da bir həyatdı" - odlu sevgisi, ülvi məhəbbəti, röyası, kədəri, ölümü ilə. "Bu da bir həyatdı" acı günləri, şirin xəyalları, nisgili ilə. Böyük alim, nəcib insan Hamlet İsaxanlının düşüncəsndə olduğu kimi:

***Həyat bir dalğadır, kim onu mindi,***
***Gah yuxarı qalxdı, gah dibə endi.***

"Kim kimi yaratdı" adlı başqa bir şeirində isə yazır:

***Zaman-zaman öz-özümlə söhbət etdim:***
***Nə vaxt duydum,***
***necə duydum həyatı mən?***
***Öncə, əlbət, uşaqlıqda, öz nənəmdən***
***O mələki, ülf əti qəlbimə doldu.***
***Onun sığındığı Tanrı***
***Mənim də Allahım oldu,***
***Mən onun nənəmin Allahını sevdim.***

«Nənəmin Allahmı sevdim». Körpə vaxtından Allahını sevən H.İsaxanlı böyüdükcə elini sevdi, insanları sevdi. Müxtəlif insan taleləri, onlarrn kədəri, sevinci, qəmi şeirlərinin mövzusu oldu: insanlara yaxşılıq etmək, gücsüzlərə dayaq olmaq amalı oldu.

***Allah özü xəlq eyləyib***
***Ən əziz bəndəsini-insanı,***
***Quran-i Kərimi, Musanı, Isanı...***
***Imanı, ilahi dini.***

misralarını yazan, insanlığı duyan şairin ruhu nur payladı insanlara:

***Ruhumuz bədəndə tutmayır qərar,***

***Biz iki sevdanın arasındayıq.***

***Birdə... bir nisgil var ürəyimizdə,***

***Bilmirik ki, ömriin harasındayıq.***

Varmı əbədiyyət? Varsa o nədir? Və nədir həyat? Kim kimi yaratdı? Bu düşüncələr şairi rahat buraxmadı. Həyat axarında hər kəsin öz taleyi, öz qisməti vardır. Biz dünyaya qonağıq. Qonağın qisməti axırda öz evinə dönməkdir. Hamlet İsaxanlı «Qismət» şeirində «Vaxt gələndə «sağ ol» deyib bu dünyadan gedək barı»; «Yaşayarkən içimizdə sevgidən od qalayaq» deyə düşünür. Dərin mənası var bu sözlərin. Hər kəs yaşayarkən içində sevgidən od qalasa, Tanrı özü də bu sevgidən yaranan odu söndürməyə qıymaz.

ölüm insanları qorxudur**.** Lakin «həyat eşqindədir sevdalı insan». Həyat isə mübarizədir. Yaşamaq. mübarizə aparmaq üçün iradən, səbrin, yaxşı amalın olmalıdır. Şair insanlara dəyanətli olmağı arzulayır («ölümə nə var ki»):

***Öliimə nə var ki, giilüm ?!***
***Yaşamaqdır bu dümyada ən ağır iş...***
***Tək bir dəfə gəlir ölüm,***
***Təк bir dəfə qalib gəlir o insana.***
***Yaşamağın dərdi isə yetmir sәna,***
***Yaşamağın odu ilə***
***Əriyirik***
***Bir şam kimi gilə-gilə.***

Bir-birinə yağı kəsilir insanlar, haqqı-sayı itirir, mərdi qova-qova namərd edirlər. Şairin fikrincə, bütün bəlaların mənbəyi tamahkarlıqdır. Cahil insan xərabatın eşqinə cahanı da girov verməyə hazırdır:

***Bir qəhrəman, ya bi rzəngin,ya bir aqil***

***Əzrayıl açan cəbhədə***

***Oldıımu nəyəsə nail?!***

***Nə qorxu bilir, nə hədə,***

***Nə rüşvət alır Əzrayıl!***

***Qəhrəman, zəngin,ya aqil***

***Fərqi yoxdur, əcəlin nəzəri birdir,***

***Ölüm qarşısında hamı bərabərdir.***

Həyat tamaşadır; hər gələn öz rolunu oynayıb gedir kimisi yaxşı, kimisi pis. Aqil insanın son məqsədi ülvi eşqə qovuşmaqdır. Həyat yoxluqla varlıq arasında dayanacaqdır:

***Varlığımız yoxluğa doğru bir giriş***

***Həyatımız ölümə gedən yol imiş.***

Böyük alim H.İsaxanlıya görə, varlıq ilə yoxluq arasında sanki bir qapı vardır. Hər kəsin həyat yolu bu qapını açmağa aparır. İnsan həmişə xeyir işlərlə məşğul olmalıdır.

Kainat sirlərlə doludur. Min illər keçəcək. Heç kəs bu həyata bir də qayıtmayacaq. İnsanlar torpaqdan yaranıb, torpağa da qarışacaq-cismimiz torpağa qarışacaq, ruhumuz göylərə. Şairin düşüncələri insanın fikirlərini nəhayətsiz sonsuzluqlara apanr:

***Hər yanan bir gün sönüb,***
***Çox keçməz, külə dönüb***
***Torpağa qarışacam.***
***Sevdiyim bu ölkədə***

*Bir yaz günü bəlkə də,*
*Üstümdə ot göyərər.*
*Atalar yaxşı deyib:*
*Ot kökü üstə bitər...*

Şairin yaşamaq, yaratmaq eşqi sönməzdir:

*Gündoğandan günbatana gəzmişəm,*
*Oxşamıram bu dünyadan doyana.*

Şairə görə onun vətəni cənnətdir («Dalğalarla yan-yana»). Kainatın sevgisi, nuru, işığı Günəş, cənnətin sevgisi güllərdir gül açan arzulardır:

*Oz yurdunda gül açmışdı arzular,*
*O güllərin qoxusundan harda var.*

Bütün saf duyğular, müqəddəslik sevgidən başlayır. Sevən ürək istəyi, eşqi, zənginlikləri daxilində yaşayır. Vətən sevgisini bütün sevgilərdən ulu tutan şair:

*Bu dünyanın çoxmuş bəndi-bərəsi,*
*Xeyirlə şər mənəm deyir hərəsi.*
*Zamandadır, varsa bunun çarəsi...*
*Silkələnə, titrəyə yer kürəsi,*
*Ərşə qalxa Koroğlunun nərəsi*
*Dəmirçioğlu, Dəli Hasan oyana.*
*Qaniçənlər qızıl qana boyana*

deyərək düşmənlərə meydan oxuyan qəhrəmanları səsləyir.

Heç kəs pislik edib, əvəzində yaxşılıq gözləməsin. Çünki yaxşılıq yamanlığın cəzası ola bilməz. Tanrı özü verəcəkdir namərdlərin cəzasını. Qaniçənlər içəcəklər öz qanlarını.

Şair «Bakı» şeirində Bakının hüsnünə öz qələmi ilə bir çələng hörür. O, odlar şəhərinin günəşinin, neftinin, toфağının vurğunudur:

*Odlu günəş çimər mavi Xəzərdə,*
*Ulduzlar saxlayar səni nəzərdə.*
*Səni düşünürəm hər an, hər yerdə,*
*Başqasına könül vermədim, Bakı.*

Şairin fikrincə, sanki bu şəhəri yaradan özü bizə pay yollayıbdır:

*Deyirlər Bakının ölməz ruhu var,*
*Mən ona vuruldum, can dedim, Bakı!*

Şairin Vətəninə, yaşadığı şəhərə olan sevgisi, doğulub böyüdüyü kəndinə olan sevgisindən başlayır. «Ziyarət» şeiri isə müqəddəs ocağı uca tutmağın ən gözəl nümunəsidir:

*Doğulduğum, boy atdığım,*
*Arzularla qucaqlaşıb,*
*Öz dünyamı yaratdığım*
*Doğma eldə, obadayam,-*

deyən şairin sevinci xatirələrlə qarışıbdır:

***Duyğu hakim oldu bizə,***
***Sevgi özü ibadətdir.***
***Şükür, gəldik kəndimizə,***
***Bu nə gözəl ziyarətdir***

Mənəviyyat-məhəbbət. duyğular, xəyallar insanlıq dünyasının ən gözəl göstəricisidir. Şairin **saf** duyğuları, xəyalları uşaqlıqdan formalaşıbdır:

***Yadındamı, xoş baxışdan***

***Könül həyəcan duyardı.***

***Bir oğlan da yaranışdan***

***Xəyallarla yaşayardı ?***

Zərif duyğuya malik şair təbiətin gözəlliklərinə vurğundur. Onun qəlbində sadəliyə sevgi hissi həmişə duyulur. Çiçəklərin tacıdır lalə. Amma sadə, baxımsız bitir çəmənlikdə. Bu sadəlik və gözəllik şairi heyran edir:

***Yanağı al-qırmızıdı,***
***Göydə yazılmış yazıdı.***
***Allahın doğma qızıdı,***
***Əhsən o məhcəmalə.***

Təbiətin gözəlliklərini duyan, sehrini içində yaşayan şair dənizin dalğasına vurğundur («Dəniz»). Suyun dadına baxmaq üçün mənanı damlalarda axtaran şaır dənizin özünü duymaq üçün:

***Dənizin ruhunu duymaq istəsən***

***Onunla birləşib bir can olmalı,***

***Sinəndə dəniz tək həyəcan olmalı***

deyə duşünur.

Həyat özü də sankı bir damladır. bir dənizdir. Nəcib insanlar damlanı da duyur, dənizi də. Böyük alim Hamlet İsaxanlı kimi:

**Dənizin ruhunu duymaq istəsən,**
**İçindəki dənizi səslə sən**

Əgər içindəki dəniz deyil, damladırsa, necə duya bilərsən dənizin ruhunu**?**
Şairin dəniz kimi təmiz ruhu içindəki dənizlə duyur bütün kainatı.

Şair sanki içindən gələn sevincini, naləsini dalğalarla çırpınan dənizdəki gəmiyə yüklədi («Dalğalarla yan-yana»). Dalğa gəmini haraya aparsa da, müqəddəs suların içindədir:

***Heyrət bəzən bağlasa da dilimi.***

***Duyğularım işə saldı qələmi.***

***Iynə olub sapa düzdüm aləmi,***

***İçdən gələn sevincimi, naləmi***

***Yüklənərək yelkən açdı birgəmi...***
***Ömür keçdi dalğalarla yan-yana,***
***Salam olsun bu əhvalı duyana.***

Böyük alim H.İsaxanlı insanı ən uca və ali varlıq hesab edir («Güc və gücsüzlük»):

***Min şükür ki, zaman-zaman***
***Yandırıb oda yaxmadan***
***Dünyanı nura qərq etdi***
***Düşünən ən ali varlıq,***
***Yəni insan:***
***Eşqdən doğan zərif nurdur***
***bəxtiyarlıq.***

Deyirlər işığın içindən görünmür zülmət. Lakin Tanrı özü yaradıbdır işığı da, zülməti də. Tanrı yaratdığı ən gözəl insanların qəlbinə güclü ziya, günəşin işığını veribdir ki, işıqdan qaranlığı görə bilsinlər. Yalnız qəlbində günəşin nura olan dilənçinin gözündəki qəmi görə bilər («Bir gözəl gördüm»). Şairin küçədə gördüyü gözəl sədəqə yığırdı; göylərdən isə hüzn yağırdı. Onun gözləri qəmli idi. Gözün qəmi daxilin nisgilidir.

***Dodaqları kilidlənmiş,***
***Tükənmişdir sözləri.***
***Qəmli dastan söyləyirdi***
***Onun nəmligözləri...***
***Unutmuşdu kef -damağı,***
***Onun günü qara idi,***
***Mənim qanım.***

Başqa bir şeirində isə H. İsaxanlı yazır:

**Söz *qoşmadım yaxşı-yaman,***
***Tam əksinə, mən hər zaman***
***Göziimə dəyən hamını***
***Gördiim insanı biçimdə.***

Qəlbin gözü ilə dilənçini görən şair həm qəlbin, həm ağlın gözü ilə gördü gündüz vaxtı çıraqla «adam» axtaran, çoxlarının görə bilmədiyi «dəlini» - dahini («Köhnə çıraq»). Gördü ki, insanlara bildirsin ki, dahini dəli bilsələr də, onun (dəlinin-dahinin) gəzdirdiyi yalnız çıraq ola bilər ki, axtarıb tapdığı «adama» işıq versin. O dahinin qəlbi ləkəsizdir. Dünyanın mal-dövlətində gözü yoxdur. Dərk edir ki, dünyanın nəyi varsa dünyada qalacaq. Ona görə də bu insan tamahdan,

riyakarlıqdan, şan-şöhrətdən uzaq düşüb «çəlləkdə» yaşayır. Mənə belə gəlirki, o, «dəli» dahi, şair üçün dalğalı dənizdə çətinliklə tapılmış bir incidir. Şair «zərə» qiymət verən zərgərdir.

Dahi gündüz günəşin şüaları altında çıraqla axtardığı «adamı» tapa bilmədi. Gecə isə kələ-kötürün üstünə qaranlıq pərdə çəkiləndə çıraq olub yandı şairin könlü:

***Çıraq oldu yandı könül,***
***Uçdu xəyal! Həmdəmimsə***
***Kitablardı, arzulardı...***
***Gözünü aç dedi kimsə.***
***Açdım. Bu nə cah-calaldı?!***
***Qaramtü pərdə üstündə***
***Yanan çıraq, ya hilaldı ?!***
***Mələklərlə bir məclisdə***
***Insan gördüm dəstə-dəstə...***

Şairin arzuları, xəyalları həmişə ülviyyətə, gözəl ruha bağlıdır. Özünü dərk etmiş insanlar yaradanını tanıyır, ruhu yaradana sığmır. Dünyanın sirrlərini, yaranışını düşünür, təbiətin bütün təzadlarını (sevinc-kədər; zülm-ədalət; xoşbəxtlik-bədbəxtlik; həyat- ölüm) düşünür. Bunların hamısı isə insanların fikirlərində cəmlənir. Fikir görünmür. Deyilmiş dəyərli fikirlər dünyanın nemətlərindən daha qiymətlidir. Həyat müvəqqətidir, dəyərli fikirlər, yazılmış kitablar isə əbədidir. Şairin düşüncəsinə görə gözəl fikirlər insan gözlərini yumanda da qaranlığa işıq salar. İnsan həmişə yaxşı işlər haqqında fikirləşməlidir. «Pis fikirlərin olmasa, pis əməllərin də olmaz» *(Konfutsi)*. Şeir də fikirdən yaranır. Şairin dediyi kimi, Şeir eşq dolu zərif düşüncədir. Fikrin qüvvəti, qüdrəti insanın sözündədir. Şair fikrin ən dəyərli qiymətini verərək, («Şeirin ruhu») fikri,təbiətin şah əsəri adlandırıbdır:

***İstedad,ya ilahi nur***
***Başa qonmuş qızıl tacdır.***
***Fikirdir əzəldən bəri***
***Təbiətin şah əsəri,***
***Tanrı da fikrə möhtacdır.***

Fikirləri insanlara çatdıran səsdir. İnsan könlünü sözlə, səslə əks etdirir. Dünyanın bütün gözəllikləri, sirrləri, münaqişələri, iztirabları sözlə, səslə ifadə olunur. Səsin sehri, sözün sehri ürəklərə ülvilik, məhəbbət, həyəcan gətirir.

Şair «Səs» şeirində iti zəkaya, düşüncəyə yüksək qiymət verir. Həyatda çox səslər eşidirik sazın, neyin səsi; müqəddəs ana laylasının səsi, lakin şairin fikrincə ən ulu səs qəlbimizdən qopan səsdir:

***Məhəbbətə həyat verən saf nəfəsdir,***
***Ən ulu səs qəlbimizdan qopan səsdir.***
***O, nəxülya, nə ötəri bir həvəsdir.***
***O, könüldən könüllərə hopan səsdir.***
***Odur qüdrət, odur şəfqət.***
***Odur ruhun, xəyalların sərkərdəsi.***
***Haqqın səsi, eşqin səsi, qəlbin səsi.***

Sanki hər insanın qəlbində bir boşluq vardır. İnsanlar qəlblərində olan boşluğu mənəvi dəyərlərlə. müsbət enerji ilə doldurmalıdırlar. Tanrı sevdiyi insanlara gözəl mənəviyyat, müsbət enerji, ilahi nur verib ki, onu insanlara paylasınlar.

***Nahaqdan doğulmayıb***
***ruhu gözəl insanlar,***
***Yer üzünə Tanrının hədiyyəsidir***
***onlar.***

Böyük alim, nəcib insan, gözəl şair H.İsaxanlı insanlara sevinc paylayan, məhəbbət bəxş edən, daim könüllər oxşayan ürəklərin olmasını arzulayır:

***Uzaq olsun,ya yaxın, qohum olsun,ya tanış,***
***Sevinc bəxş et, könül al, qəm paylamaq***
***hünərmi?***

Nə qədər gözəl, nə qədər şirin olsa da yaşamaq, bu həyat sona çatacaq. Həyatın bütün gözəlliyi, şirinliyi xəyaldır, arzudur, ümiddir.

«Bu da bir həyatdı» - bu həyatın ən gözəl sözü «mərhəmətli», «rəhmli», ən gözəl səsi, ən gözəl yolu isə Tanrının göstərdiyi yoldur:

***Ey Tanrıdan aldığım nur,***
***Sən göstərən yol doğrudur.***

Arzu edirik ki, Tanrının göstərdiyi yolu tutanların ruhu həmişə kainatın ən uca zirvəsində olsun.

***Zöhrə Əliyeva***